# TANRI DƏRGAHINDA SEVİLƏN İNSAN

***(Mənəvi atam, şair, professor Hikmət Mahmudovun əziz xatirəsinə böyük ustadın mayın 15-i ad günüydü)***

Hikmət müəllimin saflığı, sadəliyi,qayğıkeşliyi qarşısında baş əyirəm, səcdə edirəm. Peyğəmbərlərə, övliyalara , ata, anama səcdə etdiyim kimi. O, mirvari kimi saf, büllur kimi təmiz idi.

Həyətimizdə böyük bir qızılgül kolu var. Onun gözəlliyi, ətri, qoxusu həyətə gələn hər kəsi özünə məftun edir. Bütün il boyu da çiçək açır. Bu saatda onun üstü tər qönçələrlə doludur. Qışda ağappaq qar altında da üstü güllərlə dolu olur. Bu qollu budaqlı, qocaman qızılgül kolunu mən ona, onun ömrünə bənzədirəm. O da ömrünün axırına kimi beləcəbarlı- bəhərli idi. Son nəfəsinə kimi də insanlara xeyirxahlıq edərdi.

Geologiya-minerelogiya elmləri doktoru, professor, AYB-nin üzvü, "Qızıl qələm" və "Vətən" mükafatlarının laureatı Hikmət Mahmudov görkəmli geoloq-alim tanınmış şair və pedaqoqdur.

H.Mahmudun elmi və ədəbi taleyi bütün ömrü boyu ayrılmaz olub. O, sanki poeziyası ilə elmi düşüncəsini birləşdirə bilirdi. İndi onun sətirlərini oxuyuram. Həm alim böyüklüyü görürəm, həm də cazibəli poeziyasının təravətini duyuram:

Yerin hər qarışı sirli möcüzə,
Bəşərin yaşından yaşı çox qədim.
Baxıb təbiətə, hər dağa, düzə,
Yaradan varlığa dühadır dedim.

H.Mahmud sanki bu dörd misranın içərisində geologiya elminin poeziyasını yaradıb.

Ustadım H.Mahmudun zəngin yaradıcılığı və maraqlı həyatı "Kredo" qəzetinin də həmişə diqqətində olub. Əli Rza Xələfli ustad haqqında yazdığı "Özü Hikmət, sözü hikmət" adlı kitabında poetik sözünün elmi düşüncəsindən qaynaqlandığını müəllif səmimiyyəti ilə qeyd edir: *"Həmişə və hər yerdə söz birincidir. Və həm də əlbəttə, söz sonuncudur. Bu əvvəlinci və sonuncu sözün arasında özünə sığmazlıqda yaşayan bir insan ömrü dayanır. İndiki məqamda bu ömrün bir insan taleyinin sahibi Hikmət Mahmuddur. Onu sözə hansı cazibə gətirib? Hansı gücün təsir dairəsində sözə bağlanıb... Hələlik bu sualların mahiyyətinə varmadan elmin sirli aləmlərini təfəkkürü ilə bütün ömür boyu dolaşmış, elmin qalaktikasında öz orbitini kəşf etmiş, tapmış bir alim haqqında danışmaq istərdim. O, geologiya-minerologiya elmləri doktoru, professor Hikmət İsmayıl oğlu Mahmudovdur. Onun «Geoloji tariximizə nəzər» adlı elmi əsəri nə qədər məhdud elm sahəsi üçün dəyərli töhfədirsə, bir o qədər də təbiətin sirlərini açmağa cəhd göstərən kütləvi oxucu üçün dəyərli elmi mənbədir."* Bütün şəxsiyyətlər bəşəriyyətin sevimli insanlarıdır. Şərqin qüdrətli filosofu Əl-Sərabının sözü ilə desək, xeyirli işlər görüb insanlığa xidmət göstərən şəxslər ulu Tanrının dərgahında sevimli insanlardır. Bəli, məndə Hikmət müəllimdən həmişə ata qayğısı, ata sevgisi görmüşəm. O mənim mənəvi atam idi. Hər dəfə Bakıya yolum düşəndə ona baş çəkirdim. Həyat yoldaşı Mahizər xanım da sevimli bir insandır, qayğıkeşdir, mehribandır.

Hikmət müəllimin sağlığında ona şeir həsr etmişdim. Bu şeiri isə dünaysını dəyişəndən sonra yazmışam.

Geniş dünya dardı mənə
Çovğundu, qardı mənə.
Peçin yanında üşüyürəm,
İsti evim qardı mənə.

Yaşıl bir çəmənlikdə
Şəhanə bir qızılgüldün,
Cavahirlər içində
Qiymətli bir almaz idin.

Saflıqda bulaq idin
Elmdə dərya,ümman idin.
Ürəyimin ən uca
Zirvəsində dayanmışdın.

Övliyalar nəslinin
Ocağısan, pirisən.
Uca Qafqaz dağlarının
Ən qiymətli incisisən

Hikmət Mahmudov dərin ensiklopedik biliyə malik bir şəxsiyyətdir. O, həm şair, həm də alimdir. "O, yerin altını da bilir,üstünü də". İnsan qəlbinin mühəndisləri olan şairlər sözün qüdrəti ilə insanları tərbiyə edir, insan kimi yetişdirirlər. Hikmət Mahmudov poeziyası insanlara sevgi, məhəbbət və mənəvi qida verir.

Hikmət müəllim öz yaşından cavan görünürdü. Həmişə deyərdi ki, nəslimizdə kişilər az ömürlü olublar. Təkcə Xasməmməd babadan başqa. Mən də ona həmişə dualarımda Xasməmməd babanın ömrü kimi ömür arzulayırdım.

Ustad Mahmudovların nəsil şəcərəsi kitabında yazırdı. Yaşlı insanların söylədiklərinə görə bu nəslin əsl kökü ulu babamız Hacı İsmayıl Əfəndi olubdur. Hacı İsmayıl Əfəndi Şeyx Şamilin müridlərindən olub. Ulu babamız Hacı Xas Məmməd Əfəndi də sufizim hərəkatının müridlərindən olubdur. O ərəb, fars və rus dillərini mükəmməl bilirmiş. Tarix elmləri doktoru Meşədi Nemət xanın "Böyük övliyalar" kitabında Hacı Xas Məmməd Əfəndi barədə də məlumat verir. Hacı Xas Məmməd təqiblərdən yaxa qurtarmaq üçün Buxaraya, Səmərqəndə və Orta Asiyanın digər şəhərlərinə gedir,bütün ərəb ölkələrini, habelə Hindistan, Pakistan, İranı gəzir. Vətənə qayıdandan sonra bütün var-dövlətini kasıblara paylayır. Bir cüt öküz, bir də xış saxlayır. Öz əli ilə əkib-becərməklə ailəsini saxlayır. 83 yaşında dünyasını dəyişir.

Rəşid müəllim rayonumuzda işlədiyi dövrdə "Əməkdə igidliyə görə" medalına və "Qırmızı Əmək bayrağı" ordeninə layiq görülmüş, atamla Rəşid müəllim arasında müəyyən dostluq əlaqələri var idi. Rəşid müəllimqardaşı Hikmət Mahmudovu çox sevirdi. Heç dilindən düşməzdi. Bu sevgi sanki onun ürəyindən qəlbimə köçdü....

Mən 2008-ci ildə Rəşid müəllimi itirdim. Bir ağacı kəsəndə onun böyründə pöhrəsi bitir. Və o, ağacı əvəz edir. Hikmət Mahmudov da mənim üçün o nəhəng ağacın yerində bitən yeni bir ağac oldu.

Qafqazın böyük və yenilməz Vətən fədaisi, cihad günəşi, əfsanəvi qəhrəmanı Şeyx Şamil Əfəndidən yazmaq gənclik illərimdən arzum olub. Ancaq tərəddüd edirdim yazmağa. Əsrin böyük İslam mücahidi, zəfər piri, əfəndisi Şeyx Şamilə olan sevgimi kağıza köçürə bilmirdim.

Bu isə Böyük Allaha agah oldu. Və Ramazan ayının son günləri idi.- Gecə keçirdi. Mən yata bilmirdim. Hansısa bir hiss əlimdən tutub məni çölə apardı. Göylər çiçəkləyib, ulduzlar sayrışırdı. Bədirlənmiş aya baxdım. Bu nədir, belə? Başında çalma, uzun nurani saqqalı vardı. Gözləri də şir gözlərinə bənzəyirdi. O gözlərdə ilahi bir qüvvə,mübhəm bir sirr



vardı: Bu an böyük fransız yazıçısı A.Dümanın sözləri yadıma düşdü. "Şamil ucaboylu, suyuşirin, sakit təbiətli, zəhmli bir adam idi". Gözləri şir gözlərinə bənzər idi. O atlanıb səfərə çıxanda bir aləm yaranırdı.Bu ki Şeyx Şamildir.

Gördüklərimi olduğu kimi Hikmət müəllimə danışdım. O isə,"Qızım, Allah sevgisi olan insanlar belə hadisələri görürlər. Belə hadisələr mənə də ayan olur. Tərəddüd etmə,qələmə sarıl, kitabın redaktoru da mən olacağam" - dedi. Düzdür həmin kitabı yazıb araya-ərsəyə gətirmək üçün aylar, illər keçdi.

Bir gün Hikmət müəllimdən ön sözü istədim, üç-dörd günə yazıb göndərdi. Hikmət müəllim o qədər nəzakətli, mehriban, istiqanlı o qədər də narahat bir insan idi.

Kitabım çıxanda ən çox sevinən, kitabımın təbliği üçün çalışan da o oldu. Bakıda kitabxanalara, arxivlərə kitabları göndərdi. Mətbuatda yazıları dərc etdirdi. Kitabımı ona göndərdikdən bir neçə gün sonra ustada zəng elədim.

Dedi ki, sənin "Şeyx Şamil"ini oxuyuram. "Poeziyadansa nəsr səndə daha gözəl alınır" dedi. Böyük ustad Hikmət Mahmudov "Dağlardan axan nəğmələr" kitabım çapdan çıxanda "Respublika" qəzetində elə gözəl rəy yazmışdı ki, onu göz yaşalrımla oxumuşdum. Onda Rəşid müəllimin gözləri görmürdü. Ona görə də Rəşid müəllim qulaq assın deyə, həmin yazını radioda səsləndirmişdi.

Böyük ustada ən səmimi ürək sevgimizi bu şeirlə çatdırmaq istəyirəm.

Bir övliya ocağından
İsmayıl baba qucağından
Xas Məmmədin çırağından
Nuru gördüm üzünüzdə.

Şeyx Şamil nurundan
Hikmətə "hikmət" çatıb
Şeyxin kəramətindən
Bax, ona da pay çatıb.

Alimlərin baş tacısınız
"Nobel"ə də layiqsiniz
Qəlbinizdəki xəzinəylə,
Qafqaz kimi zənginsiniz.

"Akademik" adından da
Uca ad var, bu dünyada
Bu nsanlıq adıdır.
İnsanlıq var qanında

Ümman kimi elminiz
"Perlit" kimi kəşfiniz
Sadə, gözəl qəlbiniz
Bulaq tək saflığın var.

2018-ci il idi. "Şeyx İmam Şamil" kitabımbir neçə ay idi ki, işıq üzü görmüşdü. Ustad bir gün mənə zəng etdi. Dedi ki, "kitabını rusca tərcümə etdirmisənmi? Səni axşam yuxumda gördüm. Gördüm ki, Moskvada rus şair və yazıçıların arasındasan. Kitabının təqdimatını keçirdirlər".

H.Mahmud onun sözünə dəyər verənlərin də yoluna işıq salır. Əli Rza Xələflinin "Özü Hikmət, sözü hikmət" kitabından oxuyuram: *"Hikmət Mahmud təmkin sahibi olan müdrik bir kişidir. Yazdıqları, yaratdıqları da adına uyğun hikmətə güvənən söz sərvətidir. Onsuz da hər bir insan bənzərsizdir. Hikmət Mahmud kimi insanların bənzərsizliyi, həm də mənəvi güc, enerji mənbəyi olmağı ilə bağlıdır. Bu gün də sönməyən vulkan kimi əhatə etdiyi mühitə, çox əsrlik tarixə malik söz-sənət aləmimizə hikmətlər saçmaqdadır. ...Bu gün də Hikmət Mahmudun həyat yolu davam edir və demək yaradıcılıq yolu da davam edir. Düşünürəm ki, belə insanlar sağlam ömür yaşamağın sirrini daha yaxşı bilirlər. O sirri ancaq onların hikmətlərini öyrənməklə anlamaq olar. Və yəqin ki, bu sirrin ən ümdə şərtlərindən biri şəxsin həyatının mənən sağlam yaşaması ilə bağlı olduğunu hər kəs təsdiq edər. Mənim üçün bunun ən təkzibolunmaz öynəyi Hikmət Mahmudun həyatıdır".* Müəllif doğru deyir, H.Mahmudun həyat yolu davam edir. Onun işıqlı xatirəsini yaşadanların ruhunda, varlığında; elə H.Mahmud sözündə də yaşayır.

Ruhun şad, torpağın bol olsun Hikmət Əfəndi. Cənnətin mələklərinin yanında rahat uyu. Kitabım rusca tərcümə olunmasa da yetərincə sevilir. Ona görə də "Şeyx Şamil"i II dəfə nəşr etdirdim.

Gözəl əməllərin nurundan, nəcib ruhunuz nurla, işıqla dolsun! Oxuduğum dualarımı mələklərin qanadlarında Allah-Təala Sizə çatdırsın.

***Həvva ADƏMSOY - VASALOVA,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***